***Ramiz ƏSKƏR***
***AMEA-nın Folklor İnstitutu***

# MAHMUD KAŞĞARİNİN HƏYATI

**Açar kəlmələr: Mahmud Kaşğari, Divanü lüğat-it-türk, Kaşğar, Bağdad, Opal.**

Dahi dilçi, filoloq və ensiklopedist, türk ruhunun tərcümanı, türk soysevərliyinin və türkçülüyün bayraqdarı, türkologiyanın banisi, «Divanü lüğat-it-türk» əsərinin müəllifi Mahmud Kaşğarinin həyatı, yaradıcılığı və şəxsiyyəti barədə məlumat, təəssüf ki, azdır, yox dərəcəsindədir.

Mahmud Kaşğarinin yaradıcılığı, dövrü və mühiti haqqında bir sıra sanballı məqalələr müəllifi, tanınmış rus türkoloqu akademik A.N.Kononov bu məsələ ilə bağlı təəccübünü bu şəkildə dilə gətirmişdır: «Qutadğu Bilig»in müəllifi, eləcə də onun müasiri və həmyerlisi, böyük filoloq Mahmud Kaşğari haqqında məlumatlarımız, təəssüf ki, bizi məyus edəcək dərəcədə kasaddır. Bu iki görkəmli mədəniyyət xadimi haqqında nə müasirlərinin, nə də ki sonrakı bioqraf və biblioqrafların məlumat verməməsi Kaşğariyənin və Orta Asiyanın mədəniyyət tarixində izah olunmaz müəmmadır»[1].

Fələstin mənşəli şərqşünas, Bakı Dövlət Universitetinin şərq fakültəsinin müəllimi P.K.Juze hələ 1927-ci ildə böyük təəssüf hissilə yazmışdır: «Hətta Səmani Əbu Səid kimi bir bioqraf (vəfatı: 1113-cü il) özünün «Kitab ül-ənsab» əsərində heç kimə məlum olmayan yazıçıların, o cümlədən Kaşğariyədən olan XI əsr yazıçılarının adlarının sadalanmasına iki səhifə (470-472), Orta Asiyanın daha az tanınan digər yazıçılarına isə yüzlərlə səhifə həsr etdiyi halda, «Divan» və onun müəllifi haqqında ikicə kəlmə söz demək ehtiyacını duymamışdır»[2].

Halbuki Mahmud Kaşğari öz soy şəcərəsinə görə bilavasitə Qaraxanilər sülaləsinə, Yusif Balasağunlu isə dövlətdə tutduğu yüksək vəzifəyə görə bilvasitə Qaraxanilər sarayına daxil idilər. Akademik Ziya Bünyadov məşhur salnaməçi Sədrəddin Əli əl-Hüseyninin bir kitabının rusca tərcüməsinə yazdığı qeydlərdə bu məsələyə toxunaraq bildirmişdir: «Bu zaman Şərqi Qaraxanilər dövlətinin hökmdarı Tabğaç Buğra Qara Həsən Əbu Əli əl-Həsən ibn Süleyman idi. Balasağunlu Yusif Hacib əl-Xass «Qutadğu Bilig»i

---

[1] А.Н.Кононов. Поэма Ю.Баласагунского «Благодатное знание». Юсуф Баласагуннский. Благодатное знание. М.: Наука, 1983, с. 498.

[2] П.К.Жузе. Тщесаурус Линэуарум Туржожум. Известия Восточного факультета Азербайджанского государственного университета. Востоковедение, 1927, т. 2, с. 28.

ona həsr etmişdir. Həmin xan «Divanü lüğat-it-türk»ün müəllifi məşhur Mahmud əl-Kaşğarinin əmisi idi»[1].

Mahmud Kaşğari tarixdə ilk türk-islam dövləti olan Qaraxanilər xanədanına mənsubdur. Onun babası Məhəmməd Yağan Təkin, atası isə şahzadə Hüseyn Əmir Təkindir. 1055/56-ci ildə Məhəmməd Yağan Təkinlə öz doğma qardaşı, Şərqi Qaraxani hökmdarı Süleyman Arslan xan arasında müharibə başlamış, nəticədə Süleyman Arslan xan əsir düşmüş, Buğra xan Məhəmməd Yağan Təkin Şərqi Qaraxanilər taxtını ələ keçirmişdir. 18 aylıq xaqanlıq dövründən sonra hakimiyyəti könüllü olaraq böyük oğlu Hüseyn Əmir Təkinə vermək üçün mərasim təşkil etmiş və ziyafət düzəltmişdir. Ziyafət zamanı Məhəmməd Buğra xanın kiçik arvadı (xanışı) taxta öz oğlu İbrahimi oturtmaq üçün xaqanı və şahzadələrin bir qismini zəhərləmişdir. Mahmud Kaşğarinin atası Hüseyn Əmir Təkin də həlak olanlar arasında idi. 1057-ci ildə baş verən bu saray çevrilişindən dərhal sonra əsir olan qanuni xaqan Arslan xan da boğularaq aradan götürülmüş, İbrahimin xaqan olması üçün heç bir maneə qalmamış və o, taxta çıxmışdır. Mahmud Kaşğari isə təqibdən yaxa qurtarmaq üçün Qərbi Qaraxani dövlətinin torpaqlarına keçmiş, hadisələrin sonrakı gedişini izləməyə başlamışdır. Lakin yeni xaqanın xəfiyyələri onu hər yerdə axtarmağa başlayınca, Mahmud Kaşğari tez-tez yerini dəyişmək məcburiyyətində qalmış, uzun müddət gizli həyat tərzi keçirmiş, tanınmamaq və ələ keçməmək üçün özünü alim və səyyah kimi təqdim etməli olmuşdur[2].

Avstriya şərqşünası Otto Pritsak da Mahmud Kaşgarinin şəxsiyyətindən bəhs edən məqaləsində bu barədə geniş məlumat vermişdir[3].

Mahmud Kaşğari öz əcdadları haqqında «Divanü lüğat-it-türk»də belə yazmışdır: «bizim atalarımız olan bəylərə «Xəmir» deyirlər, çünki oğuzlar «Əmir» deyə bilmədikləri üçün əlifi x-yə çevirib söyləyirlər. Atamız türk ellərini Samanoğullarından (-samanilərdən–R.Ə.) alan bəydir, adına Xəmir Təkin deyilir». «Təkin» sözünə gəlincə, hərfi mənası «qul» olan bu söz xaqanın övladlarına və xanədanın kişi cinsindən olan bütün üzvlərinə verilən ünvandır. Bilinməyən bir səbəbdən dolayı Mahmud Kaşğari özünün xaqan nəslindən olduğu barədə əsərdə bir-iki kiçik eyham dışında (məsələn, atalarının əmir olması, samaniləri devirməsi, «yoxsa ki, mən ... onların ...

---

1 Садр ад-Дин Али ал-Хусайни. Ахбар уд-Даулат ус-Селджукиййа (Зубдат ат-Таварих). Издание текста, перевод, введение, примечания и приложения З.М.Буниятова. М.: Наука, 1980, с. 204.

2 Turğun Almas. Kədimki uyğur ədəbiyiti. Kəşkər: 1988, bet 333-335.

3 O.Pritsak. Mahmut Kaşgari kimdir? TM, cilt IX, 1951-53. İstanbul: 1953, s.243-246; əlavə olaraq: Mehmet Fuat Köprülü. Türk Dili ve Edebiyatı Hakkında Araştırmalar, İstanbul: 1934, s. 33-44.

soyca ən nəcabətlisi» və sair) əlavə heç bir məlumat verməmişdir. Ehtimal ki, bu, şəxsi və siyasi mülahizələrlə bağlı olmuşdur.

M.F.Köprülü «əmir» sözünün oğuzlar tərəfindən «xəmir» şəklində tələffüz edilməsi haqqında Mahmud Kaşğarinin qeydindən belə bir nəticəyə gəlmişdir ki, ya onun atalarının idarə etdikləri vilayətlərdə, ya da komandanlıq etdikləri orduda oğuzlar əksəriyyət təşkil etmişlər[1].

Mahmud Kaşğarinin əyalət şəhəri Barsğanda, yoxsa imperiyanın paytaxtı Kaşğarda doğulması haqqında da bir-birinə zidd fikirlər vardır. Məsələn, akademik A.N.Kononov bu barədə yazmışdır: «Mahmud Kaşğarinin atası barsğanlıdır, o, Kaşğara köçmüş, Kaşğari nisbəsini alan Mahmud ehtimal ki, burada doğulmuşdur»[2].

Mahmud Kaşğari həqiqətən də Barsğandan bəhs edərkən «Bu şəhər Mahmudun atasının şəhəridir» deyə yazmışdır. Ancaq bu cümlədən nə qəsd edilir? Barsğanda doğulmaq, yoxsa bir əmir (vali) kimi Barsğanı idarə etmək? Qaraxani şahzadəsi Hüseyn Təkinin barsğanlı olması bu mənada şərtidir. Əslində, o, bütün ölkənin sahibidir. Bu sülalənin başçılığı altında türklər 992-ci ildə Buxaranı Samanilərdən almış, 999-cu ildə bütün Mavərva ün-nəhri zəbt edərək Samani dövlətinə son vermişlər. Şübhəsiz ki, Hüseyn Təkin də bu savaşlarda fəal iştirak etmişdir. Mahmud Kaşğarinin bir əhliqələm olaraq Kaşğari nisbəsini qəbul etməsi isə heç də onun mütləq Kaşğarda doğulması demək deyil, burada böyümək, yaşamaq və oxumaq da bunun üçün kifayətdir, bir xanədan üzvü kimi ağası olduğu imperiyanın paytaxtının adını daşımaq onun haqqıdır. Hətta kiçik bir şəhər və ya kənddən, sadə ailələrdən çıxmış sənətkarlar da çox vaxt iri və məşhur şəhərlərin adını nisbə olaraq almışlar.

Son dövrlərdə Urumçidə çap olunan elmi nəşrlərdə[3] «Divan» müəllifinin Kaşğardan 45 kilometr cənub-qərbdə yerləşən Opal qəsəbəsinə bağlı Azıx kəndində, yaxud Opal kəndinin Azıx məhəlləsində anadan olduğu bildirilir. Bu coğrafi adlar «Divanü lüğat-it-türk»də «Adhığ» və «Abul»[4] şəklində keçir:

---

[1] M.Fuat Köprülüzade. Türk Dili ve Edebiyatı Hakkında Araştırmalar. İstanbul, 1934, s. 40.

[2] А.Н.Кононов. Махмуд Кашгарский и его «Дивану лугат ит-тюрк». СТ, 1972, № 1, с. 3.

[3] İbrahim Müti, Mirsultan Osman. Məxmut Kəşkərininq cuti, həyati və məzari toğrisidə. Uyğur tili boyiçə tekşürüşlər. Almuta: 1988, bet 141-148; başqa nəşri: «Tarım» jurnalı, 1984, bet 3-10; məqalənin rusca nəşri: O rodine, jizni i qrobniüe M.Kaşqarskoqo. ST, 1988, № 4, s. 79-89.

[4] Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. Bakı: Ozan, 2006, I cild, s. 140. Bu söz basma nüsxədə əlif+b+l ابل şəklində hərəkəsiz, yazma nüsxədə isə أبل Obul şəklindədir. Bəsim Atalay və Karl Brokkelman onu «Abul» kimi oxumuşlar (Divanü Lügat-it-Türk, I, s. 73). Salih Mütəllibov (Turkiy Suzlar

ابل A b u l: bizim eldə [Kaşğarda] bir kənd adı.

اذغ A d h ı ğ: bizim eldə bir kənd.

Bu iki məntəqənin izahını verərkən Mahmud Kaşğari «bizim eldə» ifadəsini işlətmişdir. Halbuki həmin coğrafi məkandakı digər toponimlərdən bəhs edərkən bu ifadədən istifadə etməmişdir. Buradan belə bir məntiqi nəticə çıxır ki, o, həqiqətən də Opalın Azıx məhəlləsində doğulmuşdur. Bu fikri ilk dəfə İshaq Rəfət Işıtman irəli sürmüş, Mahmud Kaşğarinin həyatı və əsəri haqqında məlumat verərkən heç bir mənbə göstərmədən onun Kaşğarın Opal kəndində anadan olduğunu yazmışdır[1]. Məşhur uyğur dili mütəxəssisi Qocəxmət Sadvakasov da bu fikirlə həmrəydir[2].

Pamir dağlarının ətəyində, çox mənzərəli bir mövqedə yerləşən səfalı Opal qəsəbəsi vaxtilə Qaraxanilərin xarici elçilərin qarşılanıb yola salındığı yay iqamətgahlarından biri olmuş, burada «Xan bağı» və «Sultan bağı» adlı yerlərdə iri saraylar və köşklər tikilmişdir[3]. Bir Qaraxani şahzadəsinin burada doğulmasından daha təbii bir şey ola bilməzdi. Həmin məntəqənin bugünkü coğrafi koordinatları belədir: 75°30'37" şərq meridianı ilə 39°18'50" şimal paralelinin kəsişmə nöqtəsi.

Mahmud Kaşğari öz dövrünə görə çox mükəmməl təhsil almışdır. Həmin dövrdə Kaşğarda çoxlu məktəb və mədrəsənin mövcud olduğu haqda tarixi məlumatlar mövcuddur. Mahmud Kaşğarinin paytaxtdakı «Mədrəseyi-Saciyə»də təhsil almış olduğuna heç bir şübhə yoxdur. Onun Səmərqənddə, Nişapurda və Buxarada da oxuduğu ehtimal edilir. Çünki «Divan»da Buxara və Səmərqənd haqqında məlumatlara rast gəlirik. Deməli, Mahmud Kaşğari bu yerlərdə olmuşdur. O, buralara yerli türk ləhcələrinin xüsusiyyətlərini öyrənmək üçün gəlmiş ola bilərdi. Lakin o dövrdə Nişapurda türk yaşamaması belə bir nəticə çıxarmağa əsas verir ki, «Divan» müəllifi bu yerlərə təhsil almaq məqsədilə gəlmişdir.

Böyük qabiliyyətə və istedada sahib olan, taxt-tac üçün xüsusi tərbiyə olunan Mahmud Kaşğari öz dövrünün bütün elmlərini mükəmməl şəkildə öyrənmiş, o vaxt mədrəsələrdə tədris olunan riyaziyyat, hesab, həndəsə, astronomiya, dil, ədəbiyyat, tarix, coğrafiya, fəlsəfə, hüquq, təbabət,

---

Devoni, I tom, bet 102), Hüseyn Düzgün (د ل ت s. 113) və Seçkin Ərdi ilə Sərap Tuğba Yurtsevər də (Divanü Lugat-it-Türk-2005, s. 129) «Abul» şəklində oxumuşlar. Uyğurlar və çinlilər isə Opal şəklində oxuyur (Divanü Lüğat-it-Türk-Çin, I cild, s.78) və bu kəndi Mahmud Kaşğarinin doğulduğu yer hesab edirlər.

[1] İshak Refet Işıtman. Dil Kurultayı Dolayısıyle Türkçe İçin Bir Konferans. Kütahya: 1932, s. 3-5.

[2] Qocəxmət Sadvakasov. Məşhür «Divanu lüğat-it-türkninq» uyğurçə tərcimisi həkkidə. İlmiy əmgəklər, Almatı: Alem, 2000, bet 211.

[3] Abdulhekim Baki İltebir. Kaşğarlı Mahmut, Divanü Lügat-it-Türk və Doğu Türkistan. Dil Dergisi, sayı 33, Temmuz 1995, s. 32.

ilahiyyat, pedaqogika, psixologiya, hərb sənəti, məntiq, siyasət, etika və sair elm sahələrində dərin biliklər qazanmışdır. Bundan başqa, o, etnoqrafiya ilə də yaxından maraqlanmış, idman və əyləncə oyunları, kulinariya və musiqi, geyim və bəzək əşyaları, ticarət, ovçuluq, balıqçılıq və atçılıq, sənətkarlıq, əkinçilik və heyvandarlıq kimi sahələrə vaqif olmuş, ərəb, fars, böyük ehtimala görə, həm də soğd dillərini dərindən öyrənmiş, bu dillərdə yazılmış bədii, elmi ədəbiyyatı, Fərabi, ibn Sina, Biruni kimi dühaların, ərəb dilində yunan, hind, Çin müəlliflərinin əsərlərini oxumuşdur.

Mahmud Kaşğarinin təvəllüd tarixi haqqında da fərqli fikirlər mövcuddur. Məsələn, Otto Pritsak onun Qaraxanilər sülaləsinə mənsub olduğuna[1] və 1029-38-ci illər arasında doğulduğuna[2] inanır. Osman Fikri Sərqaya müxtəlif mənbələrdən, o cümlədən Otto Pritsakın məqaləsindən istifadə edərək Mahmud Kaşğarinin soy kötüyünü (şəcərəsini) çəkmişdir[3]. Buradan belə anlaşılır ki, Mahmud Kaşğari Qaraxanilər imperiyasının banisi Köl Bilgə xaqanın səkkizinci nəsildən törəməsi, taxt-tac üçün xüsusi tərbiyə edilən, Qaraxani hökmdarları siyahısında doqquzuncu sırada taxta çıxacaq vəliəhd şahzadə olmuşdur.

Son illərdə aparılan tədqiqatlar nəticəsində Mahmud Kaşğarinin 1008-ci ildə Opalda anadan olduğu, 1105-ci (bəzi rəqəmlərə görə 1095-ci) ildə Opalda vəfat etdiyi və orada Qaraxanilərə məxsus ailə məzarlığında dəfn edildiyi ortaya çıxmışdır. Burada xalqın böyük məhəbbətlə «Həzrəti Mövlana Şəmsəddin Əllamə» adlandırdığı Mahmud Kaşğarinin türbəsi Səbük Təkin, Alp Təkin, Kılıç Buğra xan və digər Qaraxani ulularının, o cümlədən anası Bibi Rəbiyyə Hinikənin (xatunun) qəbri ilə yanaşı yerləşir[4].

Bu rəqəmlər hər biri özlüyündə inandırıcı olmaqla bərabər bəzi yönlərdən şübhə doğurur. Misal üçün, Mahmud Kaşğarinin 1008-ci ildə doğulduğuna inansaq, 1057-ci ildə baş verən saray çevrilişi zamanı o özü təqribən 50 yaşında, atası Hüseyn Əmir Təkin 70, babası Buğra xan Məhəmməd isə 90 yaşlarında olmalı idi. Buğra xanın imperiyanı 18 ay idarə etdikdən sonra məhz qocalığına görə taxt-tacı oğlu Hüseyn Təkinə vermək üçün cülus məclisi keçirməsi faktı ağlabatan və məntiqi görünsə də, «qocalar sülaləsi» bir qədər şübhə yaradır.

Əgər Mahmud Kaşğarinin 1029-1038-ci illər arasında anadan olduğu barədə O.Pritsakın fikrinə inansaq, onda Mahmud çevriliş zamanı 19-28

---

[1] O.Pritsak. Mahmud Kaşgari Kimdir? TM, cilt X, İstanbul: 1953, s. 243-244.

[2] O.Pritsak, həmin əsər, s. 246.

[3] Osman Fikri Sertkaya. Son Bulunan Belgeler Işığında Kaşgarlı Mahmut Hakkında Yeni Bilgiler. Divanü Lugati't-Türk Bilgi Şöleni Bildirileri. 7-8 Mayıs 1999, Ankara: TDK, s. 130-132.

[4] Abdulhekim Baki İltebir, həmin əsər, s. 33.

yaşlarında bir gənc, atası 40-50, babası 60-70 yaşlarında olmalı idi. Bu yaşlar ümumən məqbul sayıla bilər. Mahmud Kaşğarinin məhz çevrilişdən sonra sarayı tərk edərək bütün Türküstanı 10-15 il dolaşması faktı doğrudursa, onda vəziyyət dəyişir. Çünki «Divan» kimi mürəkkəb və fundamental bir əsər yazmaq ideyası 19-28 yaşlı təcrübəsiz gənc üçün bir az erkəndir. Burada bizi ehtiyatlı olmağa vadar edən bir məqam da var: əgər Mahmud Kaşğari 19-28 yaşında «Divan» üçün material toplamağa başlamış və bu işi ən geci 34-43 yaşında tamamlayıb Bağdada yola düşmüşsə, orada ən azı 46-55 il yaşamış olmalıdır. Bu olduqca uzun müddətdir. Çünki Osman Fikri Sərtqayanın yazdığına görə, Mahmud Kaşğari əsərini xəlifəyə təqdim etdikdən bir neçə il sonra Kaşğara qayıtmışdır. Doğulduğu kəndə gələndə 89 yaşında idi. Opalda «Mədrəseyi-Mahmudiyyə» adlı məktəb açaraq orada 8 il dərs demiş və 97 yaşında haqqın rəhmətinə qovuşmuşdur[1]. Bu, miladi tarixlə 1105-ci ilə uyğun gəlir. Ona görə də Mahmud Kaşğarinin 1008-ci ildə anadan olduğunu və 1105-ci ildə vəfat etdiyini qəbul etmək lazımdır.

Türkiyədə Avrasiya Yazarlar Birliyi 2008-ci ili Mahmud Kaşğarinin anadan olmasının 1000-ci ildönümü kimi «Mahmud Kaşğari ili» elan etmiş, yubiley ilində bir sıra tədbirlər keçirməyi qərara almış, onun bugünədək tapılmamış «Kitabü cəvahir in-nəhvi fi lüğat-it-türki» əsərini tapan şəxsə 1000 cümhuriyyət altını mükafat veriləcəyini bəyan etmişdir[2].

Mahmud Kaşğarinin qəbrinin tapılmasının da maraqlı tarixçəsi var. Çinin Sinxua agentliyi 1983-cü ilin 29 mart günü özünün Urumçi müxbiri Van Yufu tərəfindən göndərilən «Mahmud Kaşğarinin qəbri tapıldı» başlıqlı teleqramını yaydı. Uyğurlar arasında böyük həyəcana səbəb olan bu xəbərdə Sintszyan (-uyğurca: Şincanq; Sintszyan Uyğur Muxtar Rayonu – SUMR bəzən qısaca olaraq bu sözlə ifadə olunur; çinlilər tərəfindən latın əlifbası ilə Xinjiang şəklində yazılır – R.Ə.) İctimai Elmlər Akademiyası direktorunun dil və tədqiqatlar üzrə müavini İbrahim Mütinin başçılığı altında bir qrup alim tərəfindən tapıldığı bildirilirdi[3]. Bu xəbər Türkiyə mətbuatında da öz əksini tapmışdır[4].

Əslində, qəbrin yeri hələ 1930-cu ildə məlum idi. O dövrdən bəri bir çox tarixi vəsiqə və təzkirə tədqiq olunmuş, 1957-ci ildə Urumçi muzeyinin əməkdaşı İsmayıl öz xatirələrində Mahmud Kaşğarinin Opalda dəfn olduğunu qeyd etmişdi. Ən sonda isə 7 əsr əvvəl tərtib edilmiş bir torpaq alqı-satqı sənədində və 1836-cı ildə Emin Həsən Qazi Axund tərəfindən yazılmış bir vəqfiyyə sənədində Mahmud Kaşğarinin adına rastlandı. Kaşğarda araşdırmalar aparan elmi heyət

[1] Osman Fikri Sertkaya, həmin əsər, s. 135.

[2] Yakup Deliömeroğlu. Kaşgarlı Mahmut 1000 Yaşında veya 2008 Kaşgarlı Mahmut Yılı. Kardeş Kalemler, sayı 6, Haziran 2007, s. 80-89.

[3] Qocaxmət Sadvakasov, həmin əsər, bet 210-211.

[4] Metin Soysal. Çinden Gelen Haber. Hürriyet, 3 Nisan 1983.

30 dekabr 1982-ci il tarixli hesabatını «Kəşkər ədəbiyiti» jurnalına göndərdi. Hesabat jurnalın 1983-cü ilin fevralında çıxan sayında dərc olundu. Həmin ilin 6 yanvarında axundun vəqfnaməsi tədqiqatçılara göstərildi, apreldə isə akademiyanın birləşmiş elmi şurasında Mahmud Kaşğarinin məzarı barədə ikinci hesabat dinlənildi və qəbul edildi[1].

Məzarın yeri dəqiqləşdirildikdən sonra hökumətin xüsusi qərarı ilə 500 min yuanlıq büdcə ayrılmış və Mahmud Kaşğarinin qəbri üzərində möhtəşəm türbə tikilmişdir. «Divan»ın 900 illik yubileyi münasibətilə türbə təmir edilmiş, ətrafı abadlaşdırılmış, böyük park salınmış, müxtəlif ağaclar əkilmişdir. Türkologiya elminin banisinin qəbrinin yanında təqribən min yaşı olan Hay-hay tərək adlanan qocaman bir qovaq ağacı ucalır. Rişəsini türk torpağından alan bu ağac neçə əsrdən bəri tarix boyu gəlib keçmiş ən böyük türklərdən birinin məzarına keşik çəkir, onu ziyarətə gələn qədirbilən xalqı vüqar və sükunətlə salamlayır.


**РЕЗЮМЕ**
**«Жизнь Махмуда Кашгарского».**

В статье говорится о жизни первого тюркского энциклопедиста, автора знаменитого «Дивану лугат ит-тюрк»а, гениального филолога и культуроведа Махмуда Кашгарского. После рассмотрения разных точек зрения М.Ф.Кепрюлю, П.К.Жузе, Отто Прицака, Ицхака Рефета Ишытмана, Ибрагима Мутьи, Мирсултана Османа, Гожахмета Садвакасова, Абдулхекима Баки Илтебира, А.Н.Кононова, Тургуна Алмаса, Османа Фикри Серткая и др., автор статьи приходит к заключению в том, что Махмуд Кашгарский родился 1008 году в поселке Опал вблизи Кашгара и умер в 1105 году там же, прожив 97 лет.



**RESUME**
**Life of Mahmud Kashghari**

The article says about life of the first Turkic encyclopaedist, author of popular *Diwan Lughat at–Turk*, genius philologist Mahmud Kashghari. After consideration the various points of view of M.F. Koprulu, P.K. Jouse, Otto Pritzak, Izhak Refet Ishitman, Ibrahim Muti, Mirsultan Osman, Gojahmet Sadvakasov, Abdul-Hakim Baki Iltebir, A.N.Kononov, Turghun Almas, Osman Fikri Sertkaya, an author of the article comes to conclusion that Mahmud Kashghari was born in 1008 in Opal settlement near Kashghar and died in 1105, in 97 years old.


---

[1] Osman Fikri Sərtkaya. Son Bulunan Belgeler İşığında Kaşgarlı Mahmud'un Hayatı Hakkında Yeni Bilgiler. Divanü Lugati't-Türk Bilgi Şöleni Bildirileri. 7-8 Mayıs 1999, Ankara: TDK, s. 132.